# Ənənələrinə sadiq qalan tədris ocağı





**Bura Azərbaycan xoreoqrafiya sənətinin bünövrəsinin qoyulduğu tədris ocağıdır. Zaman keçsə də, adı, ünvanı dəyişsə də, əsas məqsədindən uzaqlaşmayıb. Bu məktəb xoreoqrafiya sənətinin sirlərini öyrətməkdə davam edir...**

Bakıda Balet Studiyası Azərbaycan Sovet Sosialist Respublikası (SSR) Xalq Maarif Komissarlığı Kollegiyasının 29 aprel 1922-ci il tarixli iclasının qərarı ilə Əli Bayramov adına Mərkəzi Klubun nəzdində yaradılıb. 1923-cü il avqustun 18-də Xalq Maarif Komissarlığı Kollegiyasının qərarına uyğun olaraq, respublikamızın paytaxtında ritm və rəqs studiyası açılıb və Balet studiyası adlandırılıb. Həmin studiya 1929-cu ildə Xalq Maarif Komissarlığı Kollegiyasının qərarına əsasən, Bakı Xoreoqrafiya Məktəbinə çevrilib. Bu tədris ocağında təhsil alan şagirdlərin sayı 1933-cü ildə 157-yə çatıb və təhsil müddəti 4 ildən 9 ilə qaldırılıb.

Bakı Xoreoqrafiya Məktəbi 1935-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarları Şurasının qərarı ilə Bakı Xoreoqrafiya Texnikumu, 1962-ci ildə isə Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsinin qərarı ilə Azərbaycan SSR Mədəniyyət Nazirliyi nəzdində Bakı Xoreoqrafiya Məktəbi adlandırılıb.

Bakı Xoreoqrafiya Məktəbində xalqımızın zəngin milli rəqs ənənələrinin qorunması, Azərbaycan rəqslərinin peşəkar şəkildə öyrədilməsi, təbliğ olunması zərurəti nəzərə alınaraq 1960-cı illərdə Xalq bölməsi fəaliyyətə başlayıb. Azərbaycanın Əməkdar və Xalq artisti fəxri adlarına layiq görülmüş rəqs ustaları - Xumar Zülfüqarova, Afaq Məlikova, Roza Cəlilova, Cəmilə Bayramova, Səbinə Qasımova, Elizbar Osmanov və başqaları həmin illərdə bu Xalq bölməsində təhsil alıblar.

Prezident İlham Əliyev 2014-cü il aprelin 30-da Azərbaycan Respublikasında xoreoqrafiya sənəti ənənələrinin qorunması və inkişaf etdirilməsi zərurətini nəzərə alaraq, bu sahə üzrə yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə sərəncam imzalayıb. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyimiz sərəncamı ilə Bakı Xoreoqrafiya Məktəbinin bazasında Bakı Xoreoqrafiya Akademiyası yaradılıb və fəaliyyətə başlayıb. 26 dekabr 2014-cü il tarixli 432 nömrəli fərmanla təsdiq olunmuş Nizamnaməsinə əsasən, akademiya ümumi təhsil (ibtidai, ümumi orta və tam orta təhsil), orta ixtisas və ali təhsil (bakalavr, magistr, doktorantura) pillələri üzrə təhsil proqramı və əlavə təhsilin müvafiq istiqamətlərini (ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi) həyata keçirir.

Bakı Xoreoqrafiya Akademiyasında 7 kafedra və akademiyanın ali qərarverici orqanı olan Elmi Şura fəaliyyətə başlayıb. Eyni zamanda akademiyanın Bədii Şurası, Elmi-Metodiki Şurası, kollec və tam orta məktəbin Pedaqoji şuraları fəaliyyətdədir. Bu təhsil müəssisəsində mütəmadi olaraq elmi-praktik konfranslar, respublika səviyyəsində müsabiqələr, görkəmli sənətkarların yubiley gecələri təşkil edilir.

2016-cı ildən Qəmər Almaszadə adına Klassik və Milli Rəqs üzrə Birinci Beynəlxalq Müsabiqənin təsis edilməsi və keçirilməsi Bakı Xoreoqrafiya Akademiyasının ən böyük uğurlarından biri hesab olunur. Azərbaycan balet məktəbinin yaradıcılarından biri, ilk qadın balet ustası Qəmər Almaszadənin adını daşıyan bu müsabiqənin təşkil olunmasında məqsəd milli və klassik rəqs irsinin, habelə dünya xalq rəqslərinin nəsildən-nəslə ötürülməsi və təbliği, yetişməkdə olan gənc istedadların tanınması və bacarıqlarının nümayiş etdirilməsi, milli balet və xalq rəqsləri məktəbinin respublika və beynəlxalq miqyasda təbliğ olunmasıdır.

Birəsrlik tarixi olan bu tədris ocağı Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafında böyük rolu və xidmətləri olan neçə-neçə balerinalar, rəqqaslar yetişdirib. Azərbaycanın və Şərqin birinci böyük ustad balerinası Qəmər Almaszadə ilk təhsilini burada alıb. Milli xoreoqrafiya məktəbinin digər ustad sənətkarları - Leyla Vəkilova, Konstantin Bataşov, Xumar Zülfüqarova, Rəfiqə Axundova, Maqsud Məmmədov, Vladimir Pletnev, Çimnaz Babayeva, Vitali Axundov, Afaq Məlikova, Mədinə Əliyeva, Təranə Muradova və onlarca tanınmış rəqqas bu məktəbdə sənətin sirlərinə yiyələniblər. Onlar Azərbaycan xoreoqrafiya sənətini dünyada layiqincə təmsil ediblər. Onların böyük sənətini hazırda gənc nəslin tanınmış nümayəndələri davam etdirirlər.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 18 avqust.- S.7.